1 iyul 2021-ci ildən etibarən **"Vətəndaş" tipli "Asan İmza" xidməti** üçün aylıq abunə haqqı ləğv edilir və aşağıdakı şəxslərdən tutulmayacaqdır:

- "Vətəndaş" tipli "Asan İmza" xidmətini 1 iyul 2021-ci ildən etibarən qoşulanlar
- 20 iyun 2020-ci ildən etibarən "Vətəndaş" tipli "Asan İmza" xidmətinə qoşulanlar

20 iyun 2020-ci ildən "Vətəndaş" tipli "Asan İmza" xidmətinə qoşulan vətəndaşlarla yanaşı, bu xidməti 2021-ci ilin 1 iyul tarixindən etibarən əldə edən bütün vətəndaşlar 2.50 AZN təşkil edən aylıq abunə haqqını ödəməyəcəklər.
20 iyun 2020-ci ilə qədər "Vətəndaş" tipli "Asan İmza" xidmətinə qoşulan və 18 AZN ödəyən vətəndaşlar üçün aylıq abunə haqqı 2.50 AZN olaraq qalır. Bu vətəndaşlar "Asan İmza" xidmətləri qüvvədə olduğu müddətdə "Biznes" tipli "Asan İmza" sertifikatının əldə edilməsi üçün ərizə təqdim edə bilərlər.
Bu kateqoriyaya aid olan vətəndaşlar aylıq abunə haqqını ödəmək istəmədikdə, Müştəri Xidmətləri Mərkəzinə yaxınlaşıb, köhnə xidməti ləğv edərək, yeni tarifə qoşula bilərlər.
Diqqət! 20 iyun 2020-ci ildən "Vətəndaş" tipli "Asan İmza" xidmətinə qoşulan, həmçinin bu xidməti 2021-ci ilin 1 iyul tarixindən etibarən əldə edən vətəndaşlar "Biznes" tipli "Asan İmza" sertifikatlarını əldə edə bilməz.